

© Məryəm Yusifəliyeva, *Günəş şüaları*, *Təbiətin istirahəti* silsiləsi (2025)



© Jalə Əziz, *Qürub* (2023)

# *Sinxronlaşma*

## Fidan Abilova, Jalə Əziz, Leyla Quliyeva, Səbinə Cəfər, Məryəm Yusifəliyeva

Xüsusi baxış: 5 dekabr 2025, 6 — 9 PM (AZT)
Sərginin müddəti: 6 dekabr 2025 — 28 fevral 2026
Gazelli Art House, Bakı

Gazelli Art House Bakı sizi ekofeminist nəzəriyyəsinə əsaslanan *Sinxronlaşma* adlı qrup sərgisinə dəvət edir. Sərgi qadın bədəni ilə təbiət arasındakı ahəngi müasir incəsənətin ifadə imkanları vasitəsilə araşdırır, ekoloji məsələləri müxtəlif vizual yanaşmalarla mənalandırır və ekofeminizm üçün əsas olan “bədən – ekosistem” münasibətinə yeni baxış təqdim edir. Ekspozisiya təbiətin ritmlərini və bədənin daxili dinamikasını bir araya gətirərək onların bədii müstəvidə necə vəhdət təşkil etdiyini üzə çıxarır.

Sərginin konseptual xətti Steysi Alaymonun bədən və ekosistemin qarşılıqlı nüfuzunu irəli sürən transkorporal nəzəriyyəsinə əsaslanır. Bu baxışa görə, bədən sabit bir varlıq deyil, atmosfer, su və torpaqla maddi mübadiləyə daim cəlb olunan keçirici bir prosesdir. Qadın bədəni bu mübadilənin ritmik izlərini daşıyır: menstruasiya, doğum və transformasiya kimi mərhələlər Ayın dövrləri və mövsümi dəyişikliklərlə üzvi bir dialoq yaradır. Ekoloji böhran da məhz bu təbii ritmlərdə – incə, lakin hiss olunan fiziki və emosional dalğalanmalarda özünü göstərir. Beləcə, qadın bədəni təbiətin həm müdrikliyini, həm də yaralarını özündə saxlayan ekoloji yaddaşın və kollektiv şəfa prosesinin canlı arxivinə çevrilir.

Fidan Abilova qadın vücudunu həm bioloji, həm də planetar qidalandırıcı qüvvə kimi təqdim edir. Onun fotolarında qadın və təbiət arasında dialoq yaranır; monoxrom fiqurlar torpaq və su ilə birləşərək doğum, itki və yaddaşın poetik dilini yaradır.

Jalə Əziz vücudun təbiətlə sinxronlaşmasını tekstil ritmləri və spiralvari qatlar vasitəsilə vizuallaşdırır. Onun əsərlərində dairəvi modullar menstruasiya dövrləri, Ay fazaları və mövsümlərin dəyişməsi arasındakı qarşılıqlı əlaqələri simvolizə edir, bədənin və təbiətin paralel ritmləri arasında bədii dialoq formalaşdırır.

Səbinə Cəfər fotosilsiləsində antroposentrik iyerarxiyaları sual altına alır. Nəsli kəsilməkdə olan heyvan növlərini sanki “hakimin önündə dayanmış” kimi təsvir edərək, insanın təbiət qarşısındakı məsuliyyətini xatırladır və pozulmuş ekoloji tarazlığı şairanə tərzdə tənqid edir.

Leyla Quliyeva videoart əsərlərində qadın kimliyinin çoxqatlı strukturlarını və daxili “mən”in ayrı-ayrı qatlarını tədqiq edir. Burada minimalist vizual dil vasitəsilə daxili dəyişmə, “kölgəni” qəbul etmə və psixoloji bütövlüyə yönəlmə prosesləri nümayiş olunur.

Məryəm Yusifəliyeva kətan üzərində yaratmış rəngkarlıq silsiləsində müasir texnologiya mədəniyyəti tərəfindən pozulmuş bədən və təbiət arasındakı harmoniyaya müraciət edir. Bədənin fraqmentləşdirilmiş və pikselvari təsvirləri orqanik vəhdətin itirilməsini göstərir və eyni zamanda “bədən – təbiət” inteqrasiyasının harmoniyasını poetik səviyyəyə qaldırır.

Rəssamlar Fidan Abilova, Jalə Əziz, Məryəm Yusifəliyeva, Səbinə Cəfər və Leyla Quliyevanın əsərlərini bir araya gətirən sərgi “bədən – təbiət” kontinuumuna müxtəlif vizual və konseptual yanaşmalar təqdim edir. Burada vücud təkcə bioloji struktur kimi deyil, həm də ekoloji yaddaşı daşıyan canlı və açıq bir vasitə kimi təqdim olunur.

Sərgi Ataş Hub art-platforması ilə birgə tərəfdaşlıq çərçivəsində təqdim olunur. Sərginin kuratoru Mənsurə Məmmədəliyevadır, təşkilati koordinasiyanı isə Aqnessa Tariverdiyeva həyata keçirib.

## Rəssamlar haqqında

**Fidan Abilova** (d. 2001) müasir incəsənətin müxtəlif sahələrində çalışan vizual rəssam, fotoqraf və geyim dizayneridir. Onun yaradıcılığı insan ruhunun mürəkkəbliyinə və görünməz emosional qatlara fokuslanır. Emosional boşluqları, daxili qarışıqlıqları, bədənin gizli xatirələrini və psixoloji dərinlikləri vizual formaya çevirərək, rəssam fotoqrafiya və performans vasitəsilə ruhun qeyri-maddi dünyasını maddiləşdirir. Fotoqrafiya və performansı instalyasiya strukturları ilə birləşdirərək, Fidan Abilova qeyri-sabitlik, parçalanmış harmoniya və hisslərin transformasiyasını konseptual olaraq araşdırır. Onun əsərləri fərdi və qrup sərgilərində nümayiş etdirilib.

**Jalə Əziz** (d. 1999) Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında toxuculuq üzrə magistr təhsili almışdır. O, tekstil, toxuma və naxış texnikalarından istifadə edərək köhnə parçalar və arxiv fotoşəkillər üzərində yaddaş, kimlik və zaman anlayışlarını yenidən qurur. Rəssam layların və teksturaların dinamik qarşılaşmasını, həmçinin ənənəvi motivlərin daşıyıcılıq potensialını araşdıraraq keçmişin səsini bu günə gətirən vizual-poetik əsərlər yaradır. Jalə Əziz Bakı, İstanbul və Moskvada keçirilən müxtəlif qrup sərgilərində iştirak etmişdir.

**Səbinə Cəfər** (d. 2000) yaradıcılığı metaforik və simvolik dilə əsaslanan rəssam və vizual hekayəçidir. Kino, instalyasiya, eləcə də maska və kukla sənətindən ilham alan rəssam sürrealla gerçəkliyi bir araya gətirir. Onun əsərləri ənənəvi formaların hüdudlarını aşaraq insan təbiətinin zərifliyini, zamanın axınına münasibətimizi

və nəsli kəsilməkdə olan canlıların səssiz fəryadını vizual poeziyaya çevirir. Rəssamın bədii dünyası lirizmlə satiranın, gözəlliklə təhrifin kəsişməsində yaranır.

**Leyla Quliyeva** (d. 1999) Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının dizayn fakültəsinin məzunudur. Onun yaradıcılıq fəaliyyəti insanın daxili aləmini – psixoloji qatları və gizli emosiyaları araşdırmağa yönəlib. İncəsənət onun üçün səmimi ifadə, özünü tanıma və şüuraltını işıqlandırma məkanıdır. Videoart, fotoqrafiya və illüstrasiyadan istifadə edərək, o, travma, daxili aləm və emosional yaddaşı tədqiq edir. Leyla Quliyevanın əsərləri şəxsi təcrübədən qaynaqlanır və həm daxili aləmi əks etdirir, həm də rəssam və tamaşaçı üçün vizual terapiya funksiyasını yerinə yetirir.

**Məryəm Yusifəliyeva** (d. 2001) əsasən ənənəvi media – kətan və yağlı boya ilə işləyən multidissiplinar rəssamdır. Onun yaradıcılığı insan və təbiət, canlı və süni arasındakı münasibətləri araşdırır və imitasiya dünyasında itirilmiş autentiklik mövzusuna toxunur. Sənətçinin əsərləri insan vəziyyətini identiklik, bədən və sosial reallıqların kəsişməsi vasitəsilə tədqiq edir. Rəngkarlıqla yanaşı, fotoqrafiya, əl ilə hazırlanmış obyektlər və mətnlərdən istifadə edərək romantik ideal ilə sərt reallıq arasındakı daxili gərginliyi vizual formaya çevirir.

## Atəş Hub haqqında

Təsisçisi və rəhbəri Sabina Şıxlinskaya olan Atəş Hub – sərgilər, eksperimental layihələr və tədqiqat yönümlü təşəbbüslər vasitəsilə çağdaş incəsənət təcrübələrə dəstək verən multidissiplinar art-platformadır.

## Qalereya haqqında

Gazelli Art House 2010-cu ildə Mila Əsgərova tərəfindən təsis edilmişdir. Qalereya, İkinci Dünya müharibəsindən sonrakı dövrdən başlayaraq pop-art və abstrakt ekspressionizm kimi istiqamətləri təmsil edən sənətçilərdən tutmuş, rəqəmsal dövrdə sənəti yenidən mənalandıran ultramüasir yaradıcı simalara qədər geniş beynəlxalq rəssamları nümayiş etdirir. Qalereya, çoxşaxəli ifadə vasitələri ilə ənənələrə meydan oxuyan sənətçiləri dəstəkləyir. O, Bakıda yerləşən qalereya ilə birlikdə regionun sənətçilərini tanıtmaq və mədəniyyətlərarası dialoqu təşviq etmək məqsədi daşıyır. 2015-ci ildə qalereya incəsənət və texnologiyaların kəsişməsində yenilikləri dəstəkləmək üçün GAZELL.iO adlı onlayn platforma yaratdı.

Əlavə məlumat üçün: press@gazelliarthouse.com